**Dədə Qorqud**

Yalnız Azərbaycan ədəbiyyatının deyil, dünya ədəbiyyatının da nadir incilərindən sayılan "Kitabi-Dədə Qorqud" dastanı xalqımızın ən qədim yazılı söz abidələrindən biridir. Dastan on iki boydan, hər boy qədim türk tayfası olan Oğuzların həyat və düşüncə tərzini əks etdirən müstəqil süjetdən ibarətdir. Boyların müəllifliyi Dədə Qorquda aid edilir. O, Oğuz türklərinin başbiləni, yolgöstərənidir. Dastanın "Müqəddimə"sində Dədə Qorqudun Məhəmməd peyğəmbər zamanında (VII əsr) yaşadığı və onun üzünü gördüyü qeyd edilir. Orta əsr tarixçilərindən bəzilərinin yazdığına görə isə, Dədə Qorqud türklər tərəfindən elçi sifətilə Məhəmməd peyğəmbərin yanına göndərilib. Onun hazırda əlimizdə olan iki nüsxəsi var. Müqəddimə və 12 boydan ibarət olan Drezden (Almaniya) nüsxəsidir. Bu nüsxə haqqında ilk məlumat XIX əsrin əvvəllərində verilmişdir. Sonralar isə Vatikanda bu əsərin ikinci bir nüsxəsi tapılmışdır. İtalyan alimi Ettope Rossi tərəfindən 1952-ci ildə nəşr edilmiş, bu nüsxə eyni müqəddimə ilə 6 boydan ibarət olan Vatikan (İtaliya) nüsxəsidir. Bu nüsxələrin XVI əsrdə üzü köçürülmüş əlyazmalar olduğu bildirilir. Drezden nüsxəsi 1972-ci ilin avqustunda Bakıya gətirilib. «Kitabi-Dədə Qorqud» dilimizin, ədəbiyyatımızın, dastan yaradıcılığımızın, ümumiyyətlə mədəniyyətimizin tarixini öyrənməkdə böyük əhəmiyyətə malikdir.

1. Dirsə xan oğlu Buğac xan boyu
2. Salur Qazanın evinin yağmalandığı boy
3. Baybərənin oğlu Bamsı Beyrək boyu
4. Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy
5. Duxa qoca oğlu Dəli Domrul boyu
6. Qanlı qoca oğlu Qanturalı boyu
7. Qazılıq qoca oğlu Yeynək boyu
8. Basatın Təpəgözü öldürdüyü boy
9. Bəkil oğlu İmranın boyu
10. Uşun qoca oğlu Səyrək boyu
11. Salur Qazanın dustaq olduğu və oğlu Uruzun onu xilas etdiyi boy
12. İç Oğuza Daş Oğuzun dönük çıxması və Beyrəyin öldüyü boy